# AZƏRBAYCAN RESPUBLİKASININ
# KƏND TƏSƏRRÜFATI NAZİRLİYİ

AZ1016, Bakı şəhəri, Ü.Hacıbəyli küçəsi, 80, Hökumət evi
Tel: (+99412) 498 06 44, Faks: (+99412) 498 64 49, E-poçt: web@agro.gov.az

« 28 » mart 2019 il                                                    № 01/21-08-540

**Xarici ölkələrin Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik nümayəndəliklərinin və konsulluqlarının rəhbərlərinə**

Məmnuniyyət hissi ilə bildiririk ki, 2019-cu ilin 15-17 may tarixlərində Bakı Ekspo Mərkəzində "Caspian Agro 2019" - 13-cü Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi və "World Food Azerbaijan 2019" - 25-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi keçiriləcəkdir.

Keçirildiyi illər ərzində "Caspian Agro" və "World Food Azerbaijan" sərgisi hər il mütəxəssislər arasında görüşlərin keçirilməsi, kənd təsərrüfatı sahəsi üçün texnika və avadanlıqların, habelə məhsul və xidmətlərin nümayişi baxımından önəmli platforma kimi özünü doğrultmuşdur. Sərgi Azərbaycanın kənd təsərrüfatı bazarına daxil olma, bazar haqqında dolğun məlumat əldə etmə və işgüzar əlaqələrin qurulması baxımından geniş imkanlar yaradır.

Belə ki, "Caspian Agro" və "World Food Azerbaijan" sərgisində sektorun bütün aktual istiqamətləri üzrə ən yeni məhsullar nümayiş etdirilir.

"Caspian Agro" və "World Food Azerbaijan" sərgisində 400-dək xarici və yerli şirkətin, eləcə də sektorla əlaqəli olan 7500-dək ziyarətçinin iştirak edəcəyi gözlənilir.

Qeyd olunanları nəzərə alaraq, 2019-cu ilin 15 may tarixində Bakı Ekspo Mərkəzində keçiriləcək sərginin rəsmi açılış mərasimində iştirak etməyinizə çox məmnun olardıq.

Eyni zamanda, ölkələrimiz arasında kənd təsərrüfatı sektorunda əməkdaşlığın inkişaf etdirilməsi ilə əlaqədar gələcək perspektivləri nəzərə alaraq, ölkələrinizi təmsil edən şirkətlərin sərgidə milli kollektiv stendlə və ya fərdi şəkildə iştirakının təmin edilməsinə müvafiq köməklik göstərməyinizi xahiş edirik.

İnanırıq ki, təmsil etdiyiniz ölkənin şirkətlərinin sərgidə fəal iştirakı ölkənizin bu sahədə nailiyyətlərini təqdim etməklə yanaşı, müəssisələriniz üçün regionda yeni əlverişli biznes imkanlarının yaradılmasına və ölkələrimiz arasında ticarət əlaqələrinin genişlənməsinə xidmət edəcəkdir.

İştirakınızla bağlı məlumatı "Caspian Event Organisers" şirkətinin Kənd Təsərrüfatı sərgiləri şöbəsinə bildirməyinizi xahiş edirik. Telefon: +994124474774, e-poçt: caspianagro@ceo.az. Poçt ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Nobel prospekti 15, Azure Biznes Mərkəzi, 7-ci mərtəbə.

**Qoşma:** 1 vərəq, 1 nüsxə.

**Nazir** İnam Kərimov